| 2.7.2.1 | Azərbaycan Dövlət Teleqraf Agentliyi "AzərTAc" | 5 826 576,0 | 5 826 576,0 | |
| 2.7.2.2 | "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması ilə bağlı xərclər | 30 096 000,0 | 30 096 000,0 | |
| 2.7.2.3 | Azərbaycan İctimai Televiziya və Radio Yayımı Şirkətinə verilən maliyyə yardımı | 12 008 141,0 | 12 008 141,0 | |
| 2.7.2.4 | Azərbaycan Nəşriyyatı (dövlət sifarişlərinin yerinə yetirilməsi ilə bağlı xərclər) | 652 080,0 | 652 080,0 | |
| 2.7.2.5 | Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu | 2 406 464,0 | 2 406 464,0 | |
| 2.7.2.6 | "Mir" Dövlətlərarası Teleradio Şirkətinin Milli Nümayəndəliyinə verilən subsidiya | 459 819,0 | 459 819,0 | |
| 2.7.2.7 | Radio və televiziya redaksiyalarının saxlanılması ilə bağlı xərclər | 42 502,0 | | 42 502,0 |
| 2.7.3 | Bədən tərbiyəsi, gənclər siyasəti və turizm xərcləri | 26 064 693,0 | 21 448 602,0 | 4 616 091,0 |
| 2.7.3.1 | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 6 772 689,0 | 6 772 689,0 | |
| 2.7.3.2 | Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi | 19 067 458,0 | 14 451 367,0 | 4 616 091,0 |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| 2.7.3.2.1 | bədən tərbiyəsi və idmanın təşkili | 13 256 970,0 | 9 471 730,0 | 3 785 240,0 |
| 2.7.3.2.2 | gənclər siyasəti | 5 810 488,0 | 4 979 637,0 | 830 851,0 |
| 2.7.3.3 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | 224 546,0 | 224 546,0 | |
| 2.7.4 | Digər kateqoriyalara aid edilməyən xərclər | 5 590 107,0 | 5 501 254,0 | 88 853,0 |
| 2.7.4.1 | Heydər Əliyev Mərkəzi | 2 006 400,0 | 2 006 400,0 | |
| 2.7.4.2 | Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi (Əqli mülkiyyət hüquqlarının qorunmasına və təmin edilməsinə dair tədbirlərin maliyyələşməsi ilə bağlı xərclər) | 383 202,0 | 383 202,0 | |
| 2.7.4.3 | Azərbaycanda Atatürk Mərkəzi | 245 328,0 | 245 328,0 | |
| 2.7.4.4 | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi (İncəsənət xadimlərinə verilən mükafatların maliyyə təminatı ilə bağlı xərclər) | 756 316,0 | 756 316,0 | |
| 2.7.4.5 | Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yanında İnformasiya Mərkəzi | 325 725,0 | 325 725,0 | |
| 2.7.4.6 | Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası | 151 695,0 | 151 695,0 | |
| 2.7.4.7 | Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının | | | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləş-dirilmiş xərclər | Yerli xərclər |
| | daimi fəaliyyət göstərən İşçi Qrupu | 80 057,0 | 80 057,0 | |
| 2.7.4.8 | Dövlət büdcəsindən verilən maliyyə yardımları | 1 641 384,0 | 1 552 531,0 | 88 853,0 |
| 2.7.4.8.1 | Yazıçılar Birliyinə dövlət büdcəsindən verilən maliyyə yardımı | 441 184,0 | 357 849,0 | 83 335,0 |
| 2.7.4.8.2 | Bəstəkarlar İttifaqına dövlət büdcəsindən verilən maliyyə yardımı | 282 276,0 | 276 758,0 | 5 518,0 |
| 2.7.4.8.3 | Rəssamlar İttifaqına dövlət büdcəsindən verilən maliyyə yardımı | 160 512,0 | 160 512,0 | |
| 2.7.4.8.4 | Azərbaycan Dünyası Beynəlxalq Əlaqələr Mərkəzinə dövlət büdcəsindən verilən maliyyə yardımı | 95 304,0 | 95 304,0 | |
| 2.7.4.8.5 | "Qızıl Aypara" Cəmiyyətinə dövlət büdcəsindən verilən maliyyə yardımı | 662 108,0 | 662 108,0 | |
| 2.7.5 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət üzrə əmək haqqı və pensiya təminatı sistemlərinin təkmilləşdirilməsi və digər sosial tədbirlərin maliyyələşməsi ilə bağlı xərclər | 2 757 553,0 | 2 757 553,0 | |
| 2.7.6 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət üzrə istehsalat, sosial-mədəni məişət təyinatlı, inzibati və idarəetmə obyektlərinin yenidən qurulması və əsaslı təmiri ilə bağlı | | | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| | xərclər | 2 006 400,0 | 2 006 400,0 | |
| 2.7.7 | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi ilə bağlı xərclər | 7 491 327,0 | 7 491 327,0 | |
| 2.8 | Mənzil və kommunal təsərrüfatı xərcləri | 227 683 253,0 | 42 095 519,0 | 185 587 734,0 |
| 2.8.1 | Mənzil təsərrüfatı xərcləri | 18 577 370,0 | 784 843,0 | 17 792 527,0 |
| 2.8.1.1 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (məcburi köçkünlər üçün salınmış qəsəbələrdə dövlət mənzil fondunun istismarı və saxlanılması ilə bağlı xərclər) | 300 630,0 | 300 630,0 | |
| 2.8.1.2 | Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 484 213,0 | 484 213,0 | |
| 2.8.1.3 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşən müəssisə və təşkilatlar üzrə xərclər | 17 792 527,0 | | 17 792 527,0 |
| 2.8.2 | Kommunal təsərrüfatı xərcləri | 204 264 936,0 | 36 933 288,0 | 167 331 648,0 |
| 2.8.2.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (yaşıllıqların salınması, onlara xidmət və landşaft quruluşu işlərinin yerinə | | | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləş-dirilmiş xərclər | Yerli xərclər |
| | yetirilməsi ilə bağlı xərclər) | 6 507 195,0 | 6 507 195,0 | |
| 2.8.2.2 | Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (məcburi köçkünlər üçün salınmış qəsəbələrdə abadlıq, yaşıllaşma işlərinin görülməsi və digər kommunal tədbirləri ilə bağlı xərclər) | 2 754 151,0 | 2 754 151,0 | |
| 2.8.2.3 | Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi | 1 511 183,0 | 1 511 183,0 | |
| 2.8.2.4 | Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dənizkənarı Bulvar İdarəsi | 2 360 952,0 | 2 360 952,0 | |
| 2.8.2.5 | "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması ilə bağlı xərclər | 4 133 628,0 | 4 133 628,0 | |
| 2.8.2.6 | "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması ilə bağlı xərclər | 19 666 179,0 | 19 666 179,0 | |
| 2.8.2.7 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşən müəssisə və təşkilatlar üzrə xərclər | 167 331 648,0 | | 167 331 648,0 |
| 2.8.3 | Su təsərrüfatı xərcləri | 4 377 388,0 | 4 377 388,0 | |
| 2.8.3.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (çirkab sularının | | | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| | təmizləyici qurğularının istismarı və xidməti ilə bağlı xərclər) | 546 371,0 | 546 371,0 | |
| 2.8.3.2 | "Azərsu" Açıq Səhmdar Cəmiyyəti | 3 054 066,0 | 3 054 066,0 | |
| 2.8.3.3 | Su təchizatı qurğularının istismarı və xidməti üzrə bələdiyyələrə göstərilən maliyyə yardımı ilə bağlı xərclər | 776 951,0 | 776 951,0 | |
| 2.8.4 | Mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 463 559,0 | | 463 559,0 |
| 2.8.4.1 | Şəhər və rayonların yerli xərclərindən maliyyələşən müəssisə və təşkilatlar üzrə xərclər | 463 559,0 | | 463 559,0 |
| 2.9 | Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi | 448 033 596,0 | 448 033 596,0 | |
| 2.9.1 | Kənd təsərrüfatı xərcləri | 376 026 946,0 | 376 026 946,0 | |
| 2.9.1.1 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | 10 630 214,0 | 10 630 214,0 | |
| 2.9.1.2 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (kənd təsərrüfatı əmlakının sığortalanması üçün sığorta haqqının dövlət büdcəsi hesabına ödənilən hissəsi) | 750 000,0 | 750 000,0 | |
| 2.9.1.3 | “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın maliyyələşdirilməsi ilə bağlı xərclər | 111 570 000,0 | 111 570 000,0 | |
| 2.9.1.4 | Azərbaycan Respublikasının Dövlət | | | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| | Torpaq və Xəritəçəkmə Komitəsi (dövlət torpaq kadastrı, torpaqların monitorinqi, yerquruluşu, geodeziya, topoqrafiya, xəritəçəkmə işləri, qravimetriya və torpaq islahatı ilə bağlı xərclər) | 13 908 584,0 | 13 908 584,0 | |
| 2.9.1.5 | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 219 185 721,0 | 219 185 721,0 | |
| 2.9.1.6 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti | 16 482 753,0 | 16 482 753,0 | |
| 2.9.1.7 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti | 3 499 674,0 | 3 499 674,0 | |
| 2.9.2 | Meşə təsərrüfatı xərcləri | 9 651 188,0 | 9 651 188,0 | |
| 2.9.2.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 9 651 188,0 | 9 651 188,0 | |
| 2.9.3 | Balıqçılıq və ovçuluq təsərrüfatı xərcləri | 2 027 492,0 | 2 027 492,0 | |
| 2.9.3.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2 027 492,0 | 2 027 492,0 | |
| 2.9.4 | Ətraf mühitin mühafizəsi | 3 585 506,0 | 3 585 506,0 | |
| 2.9.4.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 3 585 506,0 | 3 585 506,0 | |
| 2.9.5 | Hidrometeorologiya | 6 742 464,0 | 6 742 464,0 | |
| 2.9.5.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii | | | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləş-dirilmiş xərclər | Yerli xərclər |
| | Sərvətlər Nazirliyi | 6 742 464,0 | 6 742 464,0 | |
| 2.9.6 | Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq və ətraf mühitin mühafizəsi sahəsi üzrə maddi-texniki təminatın möhkəmləndirilməsi ilə bağlı xərclər | 50 000 000,0 | 50 000 000,0 | |
| 2.10 | Sənaye, tikinti və faydalı qazıntılar xərcləri | 3 396 469 329,0 | 3 396 469 329,0 | |
| 2.10.1 | Tikinti xərcləri | 3 383 000 000,0 | 3 383 000 000,0 | |
| 2.10.1.1 | Dövlət əsaslı vəsait qoyuluşu | 3 380 000 000,0 | 3 380 000 000,0 | |
| 2.10.1.2 | Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 3 000 000,0 | 3 000 000,0 | |
| 2.10.2 | Faydalı qazıntılar və geoloji kəşfiyyat | 13 469 329,0 | 13 469 329,0 | |
| 2.10.2.1 | Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 6 069 329,0 | 6 069 329,0 | |
| 2.10.2.2 | Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik | 7 400 000,0 | 7 400 000,0 | |
| 2.11 | Nəqliyyat və rabitə xərcləri | 64 602 544,0 | 64 602 544,0 | |
| 2.11.1 | Nəqliyyat xərcləri | 60 552 880,0 | 60 552 880,0 | |
| 2.11.1.1 | Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi | 28 597 344,0 | 28 597 344,0 | |
| 2.11.1.1.1 | Avtomobil yolları təsərrüfatı | 24 026 965,0 | 24 026 965,0 | |
| 2.11.1.1.2 | Avtomobil nəqliyyatı fəaliyyətinin tənzimlənməsi ilə bağlı xərclər | 4 570 379,0 | 4 570 379,0 | |
| 2.11.1.2 | “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə verilən subsidiya | 11 930 537,0 | 11 930 537,0 | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| 2.11.1.3 | Bakı Metropoliteninə verilən subsidiya | 20 024 999,0 | 20 024 999,0 | |
| 2.11.2 | Rabitə xərcləri | 4 049 664,0 | 4 049 664,0 | |
| 2.11.2.1 | Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətində yaranan zərərin örtülməsi ilə bağlı xərclər | 2 000 000,0 | 2 000 000,0 | |
| 2.11.2.2 | "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması ilə bağlı xərclər | 2 049 664,0 | 2 049 664,0 | |
| 2.12 | İqtisadi fəaliyyətlə bağlı xərclər | 112 890 200,0 | 112 890 200,0 | |
| 2.12.1 | İqtisadi və kommersiya fəaliyyəti | 35 000 000,0 | 35 000 000,0 | |
| 2.12.1.1 | "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin nizamnamə kapitalının artırılması ilə bağlı xərclər | 35 000 000,0 | 35 000 000,0 | |
| 2.12.2 | İqtisadi fəaliyyətin digər sahələri | 14 000 000,0 | 14 000 000,0 | |
| 2.12.2.1 | Azərbaycan Respublikasının Mərkəzi Bankı (Azərbaycan İpoteka Fondunun nizamnamə kapitalının artırılması ilə bağlı xərclər) | 14 000 000,0 | 14 000 000,0 | |
| 2.12.3 | Çoxsahəli inkişaf layihələri üzrə xərclər | 52 934 150,0 | 52 934 150,0 | |
| 2.12.3.1 | Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi | 34 184 150,0 | 34 184 150,0 | |
| 2.12.3.1.1 | Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu (sahibkarlığın inkişafı ilə bağlı xərclər) | 34 034 000,0 | 34 034 000,0 | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| 2.12.3.1.2 | İqtisadi islahatların keçirilməsi ilə bağlı xərclər | 150 150,0 | 150 150,0 | |
| 2.12.3.2 | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi (aqrar sektora kreditlərin verilməsi ilə bağlı xərclər) | 10 000 000,0 | 10 000 000,0 | |
| 2.12.3.3 | Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi (Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması ilə bağlı xərclər) | 8 750 000,0 | 8 750 000,0 | |
| 2.12.4 | İqtisadi fəaliyyət sahələri üzrə təcrübə və tətbiqi tədqiqatlar | 956 050,0 | 956 050,0 | |
| 2.12.4.1 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 956 050,0 | 956 050,0 | |
| 2.12.5 | Dövlət müəssisələrinin fəaliyyəti ilə əlaqədar zərərin və digər öhdəliklərin tənzimlənməsi və maliyyə sağlamlaşdırılması tədbirləri ilə bağlı xərclər | 10 000 000,0 | 10 000 000,0 | |
| 2.13 | Əsas bölmələrə aid edilməyən xərclər | 1 906 648 131,0 | 1 892 262 375,0 | 14 385 756,0 |
| 2.13.1 | Ehtiyat fondlarının xərcləri | 260 000 000,0 | 260 000 000,0 | |
| 2.13.1.1 | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 160 000 000,0 | 160 000 000,0 | |
| 2.13.1.2 | Dövlət büdcəsinin ehtiyat fondu | 100 000 000,0 | 100 000 000,0 | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləş-dirilmiş xərclər | Yerli xərclər |
| 2.13.2 | Məqsədli büdcə fondları | 270 000 000,0 | 270 000 000,0 | |
| 2.13.2.1 | "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu | 170 000 000,0 | 170 000 000,0 | |
| 2.13.2.2 | "Dövlət zəmanəti ilə alınan borcların Təminat Fondu" | 100 000 000,0 | 100 000 000,0 | |
| 2.13.3 | Əsas bölmələrə aid edilməyən sair xərclər | 1 376 648 131,0 | 1 362 262 375,0 | 14 385 756,0 |
| 2.13.3.1 | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası (İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının icrası ilə bağlı xərclər) | 953 040,0 | 953 040,0 | |
| 2.13.3.2 | Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi (dövlət atributlarının, biometrik pasportların hazırlanması və lisenziya blanklarının çap edilməsi ilə bağlı xərclər) | 9 525 025,0 | 9 525 025,0 | |
| 2.13.3.3 | Azərbaycan Respublikasının Maliyyə Nazirliyi | 42 710 645,0 | 42 118 836,0 | 591 809,0 |
| 2.13.3.3.1 | Ciddi hesabat blanklarının hazırlanması, xüsusi müdafiə olunan və digər sənədlərin çap edilməsi ilə bağlı xərclər | 12 518 236,0 | 12 518 236,0 | |
| 2.13.3.3.2 | valyuta konvertasiyası üzrə xərclər | 17 000 000,0 | 17 000 000,0 | |
| 2.13.3.3.3 | Azərbaycan Respublikasının beynəlxalq kredit reytinqinin müəyyən olunması və digər işlərin qiymətləndirilməsi üçün | | | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər |
| | ekspertlərin cəlb edilməsi ilə bağlı xərclər | 1 600 600,0 | 1 600 600,0 | |
| 2.13.3.3.4 | beynəlxalq proqramların həyata keçirilməsində Azərbaycan tərəfinin payı | 7 500 000,0 | 7 500 000,0 | |
| 2.13.3.3.5 | beynəlxalq mühasibat uçotu standartlarının tətbiqi ilə bağlı xərclər | 500 000,0 | 500 000,0 | |
| 2.13.3.3.6 | məhkəmə qərarlarının icrası, məhkəmə prosesləri ilə bağlı göstərilən hüquqi yardım və digər xidmətlər üzrə xərclər | 3 591 809,0 | 3 000 000,0 | 591 809,0 |
| 2.13.3.4 | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi (fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər) | 15 000 000,0 | 15 000 000,0 | |
| 2.13.3.5 | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası | 2 773 274,0 | 2 773 274,0 | |
| 2.13.3.6 | Beynəlxalq və respublika səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər | 18 000 000,0 | 18 000 000,0 | |
| 2.13.3.7 | YUNESKO ilə əməkdaşlıq çərçivəsində tədbirlərlə bağlı xərclər | 1 437 200,0 | 1 437 200,0 | |
| 2.13.3.7.1 | Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi | 287 200,0 | 287 200,0 | |
| 2.13.3.7.2 | Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi | 1 150 000,0 | 1 150 000,0 | |
| 2.13.3.8 | Dövlət büdcəsindən maliyyələşən | | | |

| | Xərclərin istiqaməti | Xərclərin məbləği | o cümlədən: | |
|---|---|---|---|---|
| | | | Mərkəzləş-dirilmiş xərclər | Yerli xərclər |
| | təşkilatların büdcədənkənar xərcləri | 152 000 000,0 | 149 855 000,0 | 2 145 000,0 |
| 2.13.3.9 | Büdcə təşkilatlarında çalışan işçilərin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın tətbiq edilməsi ilə bağlı xərclər | 10 000 000,0 | 10 000 000,0 | |
| 2.13.3.10 | Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər | 1 087 000 000,0 | 1 087 000 000,0 | |
| 2.13.3.11 | Dağ ərazilərində selə qarşı tədbirlərin həyata keçirilməsi ilə bağlı xərclər | 20 000 000,0 | 20 000 000,0 | |
| 2.13.3.12 | Dövlət maddi və material ehtiyatlarının yaradılması ilə bağlı xərclər | 5 600 000,0 | 5 600 000,0 | |
| 2.13.3.13 | Yerli xərclərdə nəzərdə tutulmayan zəruri sosial-iqtisadi və digər təyinatlı tədbirlərin maliyyələşdirilməsi ilə bağlı xərclər | 10 898 361,0 | | 10 898 361,0 |
| 2.13.3.14 | Şəhər və rayonlarda yerləşən səfərbərlik ehtiyatları anbarlarının, ehtiyat idarəetmə məntəqələrinin saxlanılması xərcləri və digər tədbirlər üzrə xərclər | 750 586,0 | | 750 586,0 |

3. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

3.1. “Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə dövlət büdcəsinin gəlirləri üzrə təsdiq olunmuş göstəricilərin yerinə yetirilməsini nəzarətdə saxlasın və zəruri hallarda müvafiq tədbirlər görsün;

3.2. bu Fərmanın 2.1.7.1-ci bəndində (Beynəlxalq maliyyə-kredit və ictimai-siyasi təşkilatlara üzvlüklə bağlı xərclər), 2.1.7.2.1-ci bəndində (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin saxlanılması ilə bağlı xərclər), 2.1.7.3-cü

bəndində (Digər beynəlxalq fəaliyyət), 2.1.11.2-ci bəndində (Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya), 2.9.1.3-cü bəndində ("2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın maliyyələşdirilməsi ilə bağlı xərclər), 2.13.1.2-ci bəndində (Dövlət büdcəsinin ehtiyat fondu), 2.13.3.6-cı bəndində (Beynəlxalq və respublika səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər) və 2.13.3.11-ci bəndində (Dağ ərazilərində selə qarşı tədbirlərin həyata keçirilməsi ilə bağlı xərclər) nəzərdə tutulan vəsaitin konkret tədbirlər üzrə bölgüsünü həyata keçirsin;

3.3. bu Fərmanın 2.2.5-ci bəndində (Ölkənin müdafiə potensialının gücləndirilməsi ilə bağlı xərclər), 2.13.3.10-cu bəndində (Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər) və 2.13.3.12-ci bəndində (Dövlət maddi və material ehtiyatlarının yaradılması ilə bağlı xərclər) nəzərdə tutulan vəsaitin qanunvericiliklə müəyyən olunmuş qaydada bölgüsünü həyata keçirsin və səmərəli istifadəsi ilə bağlı zəruri tədbirlər görsün;

3.4. bu Fərmanın 2.10.1.1-ci bəndində (Dövlət əsaslı vəsait qoyuluşu) nəzərdə tutulan vəsaitin obyektlər və istiqamətlər üzrə bölgüsünü "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 17.3-cü maddəsinə müvafiq olaraq 2011-ci il yanvar ayının sonunadək həyata keçirsin;

3.5. bu Fərmanın 2.12.3.3-cü bəndi ilə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə ayrılmış vəsaitin (Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və mülkiyyət hüquqlarının qorunması ilə bağlı xərclər) istifadə istiqamətləri üzrə bölgüsünü iki ay müddətində təsdiq etsin;

3.6. əlillərin və sağlamlıq imkanları məhdud uşaqların, iş axtaranların və işsiz vətəndaşların sosial müdafiəsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsinin dövlət proqramlarını (Naxçıvan Muxtar Respublikası üzrə xərclər ayrıca göstərilməklə) iki ay müddətində təsdiq etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın:

4.1. Azərbaycan Respublikası Vergilər Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xətti ilə 2011-ci il dövlət büdcəsinə nəzərdə tutulan daxilolmaların aylıq və rüblük bölgüsünü həmin orqanlarla 15 gün müddətində razılaşdırıb təsdiq etsin;

4.2. bu Fərmanın 2.1.4-cü, 2.1.5-ci, 2.1.6-cı, 2.1.8.15-ci, 2.1.8.16-cı, 2.1.8.17-ci, 2.1.9.3-cü, 2.2.6-cı, 2.2.7-ci, 2.3.5-ci, 2.3.6-cı, 2.3.7-ci, 2.4.8-ci, 2.4.9-cu, 2.4.10-cu, 2.5.6-cı, 2.5.7-ci, 2.6.3-cü, 2.7.5-ci, 2.7.6-cı, 2.7.7-ci, 2.8.3.3-cü, 2.9.6-cı, 2.12.5-ci və 2.13.3.9-cu bəndlərində nəzərdə tutulan vəsaitin qanunvericiliyə uyğun olaraq bölgüsünü həyata keçirsin və istifadəsi ilə bağlı tədbirlər görsün;

4.3. bu Fərmanın 2.1.7.1-ci bəndində (Beynəlxalq maliyyə-kredit və ictimai-siyasi təşkilatlara üzvlüklə bağlı xərclər), 2.1.7.2.1-ci bəndində (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin saxlanılması ilə bağlı xərclər), 2.1.7.3-cü bəndində (Digər beynəlxalq fəaliyyət), 2.1.11.2-ci bəndində (Yerli büdcələrə (bələdiyyələrə) verilən dotasiya), 2.13.3.6-cı bəndində (Beynəlxalq və respublika səviyyəli tədbirlərin keçirilməsi ilə bağlı xərclər) nəzərdə tutulan vəsaitin bölgüsü bu Fərmanın 3.2-ci bəndinə uyğun olaraq həyata keçirildikdən sonra, il ərzində zərurət yarandıqda həmin vəsaitin daha çevik idarə edilməsi məqsədilə "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 18.4-cü maddəsinə uyğun olaraq müvafiq tədbirlər görsün;

4.4. "Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci, 13-cü, 14-cü və 15-ci maddələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsini, habelə bu Fərmanın 2.1.10-cu bəndində (Dövlət borcuna

və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclər) nəzərdə tutulan xərclərin bölgüsünü və maliyyələşdirilməsini təmin etsin;

4.5. xarici dövlət borcunun vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etsin;

4.6. bu Fərmanın 2.13.3.8-ci bəndində (Dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri) nəzərdə tutulan vəsaitin istiqamətlər və təşkilatlar üzrə bölgüsünü üç ay müddətində həyata keçirsin;

4.7. xarici valyuta nominallı dövlət istiqrazlarının məbləğini və dövriyyədə olma müddətini müəyyən etməklə onların ilk emissiyası ilə bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər həyata keçirsin.

5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Fərmanın 2.1.7.2.2-ci bəndində (Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin fəaliyyəti ilə bağlı digər xərclər) nəzərdə tutulan vəsaitin bölgüsünü bir ay müddətində həyata keçirsin.

6. Azərbaycan Respublikasının Vergilər Nazirliyinə tapşırılsın:

6.1. hər rüb başa çatdıqdan sonra səhmlərinin (paylarının) 50 faizindən çoxu dövlətə məxsus olan hüquqi şəxslərin vergi hesablamalarını və ödəmələrini Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi və aidiyyəti strukturlarla birlikdə təhlil etsinlər, vergilərin dövlət büdcəsinə ödənilməsini təmin edən tədbirlər görsünlər və görülmüş işlər barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versinlər;

6.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə şəhər və rayonların ərazilərində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərin dövlət büdcəsinə ödədikləri vergi və digər ödənişlərin tam və ya qismən şəhər və rayonların yerli gəlirlərinə aid edilməsinə dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.3. Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə birlikdə dövlətə vergi, rüsum, icarə haqqı və digər ödənişlərin dövlət qurumlarına birbaşa ödənilməsi yolu ilə bankdankənar nağd qaydada aparılmasının aradan qaldırılması və bütövlükdə nağdsız ödənişlərin stimullaşdırılması məqsədilə normativ hüquqi bazanın təkmilləşdirilməsi barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

6.4. ölkənin regionları üzrə müəyyən olunmuş vergi daxilolmaları proqnozunun tam icra edilməsi, habelə hesablanmış vergilərin və vergi borclarının dövlət büdcəsinə ödənilməsi üçün zəruri tədbirlər görsün və görülmüş işlər barədə hər rübdən sonrakı ayın 20-dək Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsin.

7. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə, büdcə təşkilatlarının və səhmlərinin (paylarının) 50 faizdən çoxu dövlətə məxsus olan hüquqi şəxslərin rəhbərlərinə tapşırılsın ki, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən investisiya layihələri üzrə keçirilən tenderlərin qalibləri ilə bağlanılan, habelə dövlət vəsaiti və dövlət zəmanəti ilə alınmış kreditlər hesabına mal (iş, xidmət) alınması ilə əlaqədar bağlanılan məbləği 50 min manatdan yuxarı olan müqavilələri müqavilə imzalandıqdan sonra bir ay

müddətində Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş elektron formada qeydiyyatda olduqları vergi orqanına təqdim etsinlər.

8. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üç ay müddətində:

8.1. əmək bazarının tənzimlənməsinin səmərəliliyinin artırılması və vətəndaşların əmək və sosial hüquqlarının təmin edilməsi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

8.2. aztəminatlı ailələrin səmərəli məşğulluq səylərinin təşviqləndirilməsini və onların əmək bazarında fəal iştirakının dəstəklənməsini təmin etmək məqsədilə ünvanlı dövlət sosial yardımın verilməsi, sosial reabilitasiya proqramlarının tərtibi və tətbiqi ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

8.3. əlillərin səmərəli sosial müdafiəsini təmin etmək məqsədilə əlilliyin təyin olunma meyarlarının və qaydalarının təkmilləşdirilməsinə dair təkliflərini, bu sahədə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə birlikdə daşınmaz əmlakın alqı-satqısı zamanı ödənişlərin aparılması və bağlanmış əqdlər barədə məlumatların açıqlanması qaydalarının təkmilləşdirilməsi barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

10. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının Mərkəzi Bankı və Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi ilə birlikdə ipoteka ilə yüklü edilən daşınmaz əmlakın dövlət qeydiyyatı, bu əmlaka tələbin yönəldilməsi və onun satışı mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

11. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə və Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə tapşırılsın ki, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən geoloji-kəşfiyyat, torpaq islahatı, xəritəçəkmə, şəhərsalma və ərazilərin minalardan təmizlənməsi işlərinin dövlət sifarişi kimi təsdiq olunması üçün təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

12. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Azərbaycan Respublikasının şəhər və rayonlarının icra hakimiyyətlərinə tapşırılsın ki, dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsinə görə icarə haqlarının qanunvericiliyə uyğun qaydada müvafiq müqavilələrdə əks etdirilməsini, icarəyə verilmiş dövlət torpaqları və icarə haqları barədə məlumatların hər il rüb başa çatdıqdan sonra növbəti ayın 20-dək vergi orqanlarına, iyul ayının 1-dək isə maliyyə orqanlarına verilməsini təmin etsinlər.

13. Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinə tapşırılsın ki, aidiyyəti dövlət orqanları ilə birlikdə “2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafına dair Dövlət Proqramı”nın

layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

14. Dövlət rüsumunun tutulmasını həyata keçirən icra hakimiyyəti orqanlarına tapşırılsın ki, göstərdikləri xidmətə görə yığılan dövlət rüsumunun vaxtında dövlət büdcəsinə köçürülməsini və bu barədə hesabatın müəyyən edilmiş müddətlərdə vergi orqanlarına təqdim olunmasını təmin etsinlər.

15. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin, "Azərenerji", "Bakıelektrikşəbəkə", "Azərsu" və "Azərbaycan Hava Yolları" səhmdar cəmiyyətlərinin rəhbərlərinə tapşırılsın ki, alınmış və istehlak edilmiş elektrik enerjisinin, təbii qazın və neft məhsullarının dəyərinin tam və vaxtında ödənilməsini təmin etsinlər, bu sahədə qarşılıqlı münasibətlərdə borcların yaranmasına yol verməsinlər, həyata keçirilmiş ödənişlər və onların yerinə yetirilməsi ilə bağlı görülən işlər barədə hesabat ayından sonrakı ayın 10-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə və Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyinə, rübdə bir dəfə isə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsinlər.

16. Dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan müəssisə və təşkilatların rəhbərlərinə tapşırılsın ki, elektrik və istilik enerjisi, təbii qaz, su təchizatı və rabitə xidmətləri üzrə mövcud borcların ödənilməsi və yeni borcların yaranmaması üçün təsirli tədbirlər görsünlər, xərcləri yalnız bu məqsədlər üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsait (limit) daxilində həyata keçirsinlər.

17. Müəyyən edilsin ki, "Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsində nəzərdə tutulan "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.

18. Bu Fərman 2011-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, " 24 " noyabr 2010-cu il